Böyük türk ailəmiz

# Qırğız Mədəniyyəti Günləri xalqlarımızın birlik rəmzidir





**Heydər Əliyev Mərkəzində qardaşlıq bayramının açılış mərasimi bu gerçəyin təntənəli təsdiqi oldu.**

İştirakçılar öncə qardaş ölkənin dekorativ-tətbiqi və təsviri sənət ustalarının əsərlərindən ibarət sərgi, geyim kolleksiyası və milli mətbəx nümunələri ilə tanış oldular. İlkin təəssürat bu oldu ki, xalq dekorativ-tətbiqi və təsviri sənəti sahəsində əsrlərdən bəri yaradılan əl işləri müştərək tariximizin yaddaşından silinməyən izlər buraxaraq əbədi ömür qazanıb və bu sənət indi də layiqincə yaşadılır. Qırğız sənətkarların da xalçaçılıq, bədii tikmə, dulusçuluq, eləcə də rəssamlıq sahəsində örnək nümunələri heyranlıq yaradır.

Sonra Mədəniyyət naziri Adil Kərimli Azərbaycanla Qırğızıstan arasında çeşidli sahələr üzrə əlaqələrin get-gedə daha da dərinləşdiyini vurğuladı. O, iki ölkənin liderlərinin səmimi dostluq münasibətlərinin xalqlarımızın birliyinə güclü stimul verdiyini dedi. Nazir dövlət başçılarının Bakıda keçirilən görüşlərini və müxtəlif sahələr üzrə imzalanan sənədləri, paytaxtımızın mərkəzi prospektlərindən birində dünya şöhrətli böyük qırğız yazıçısı Çingiz Aytmatovun abidəsinin açılışını buna misal olaraq göstədi.

Bildirildi ki, Azərbaycan Prezidenti bir gün əvvəl Çingiz Aytmatovu Sovet İttifaqı məkanında, həm də dünya miqyasında öz xalqını layiqincə təmsil etmiş qırğız xalqının böyük oğlu, eləcə də Azərbaycanın yaxın dostu adlandırdı. Prezident Qırğızıstanda dövlət səfərində olarkən onun məzarını ziyarət etdiyini xatırladı, dünya şöhrətli ədibin Bakıdakı abidəsinin birliyimizin, dostluğumuzun qardaşlığımızın daha bir rəmzinə çevriləcəyini söylədi.

Qırğızıstan rəhbəri Sadır Japarov isə ölkəsinə və Çingiz Aytmatova olan ehtirama görə dövlətimizin başçısı İlham Əliyevə təşəkkürünü bildirdi, böyük yazıçının Azərbaycanın "Dostluq" ordeni ilə təltif edildiyini məmnunluqla yada saldı. Qonaq bu abidənin ucaldılmasını Çingiz Aytmatovun yaradıcılığının hamımızı gözəllik, müdriklik və ahəngdarlıq uğrundakı vahid məqsəd ətrafında birləşdirdiyinin təcəssümü olduğunu vurğuladı. O, Ulu öndərin "Manas" dastanının 1000 illik yubileyində söylədiyi "Biz bir-birimizi ürəyimizlə hiss edirik və başa düşürük" kəlamını da yada saldı.

...Qardaş ölkə günlərinin açılış mərasimində Qırğız Respublikasının mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Altınbek Maksutov dedi: "Mədəniyyət bizə ata-babalarımızdan qalan mirasdır. Biz bu mirası gələcək nəsillərə ötürməliyik. Bugünkü əməkdaşlıq gələcəyə nikbin baxmağa şərait yaradır".

Mərasimdə çıxışlardan sonra Türküstan ölkəsinin incəsənət ustalarının ifasında geniş konsert proqramı təqdim olundu. Qırğızıstan ifaçılarının musiqi çələngi – mahnı və rəqslər alqışlarla qarşılandı.

Eyni zamanda, Bakıda Qırğız kino günləri də keçirilir. "Cənnət anaların ayaqları altındadır" və "XƏTA#404" filmləri tamaşaçıların böyük marağına səbəb olub. Dünən isə Azərbaycan Milli Kitabxanasında hər iki ölkənin elm və yaradıcı adamlarının görüşü gerçəkləşib. Bütün bu tədbirlərlə yanaşı, Qırğızıstanda keçiriləcək Azərbaycan Mədəniyyəti Günlərinə hazırlıq gedir.

Prezidentlərin dünənki Qarabağ səfəri zamanı qonaqlar Füzulidə işğalçıların dağıtdığı yerlərə baxıb, şəhərin Baş planı ilə tanış oldular. Ağdam rayonunda Pənahəli xanın mülkü olan İmarət kompleksi ziyarət edildi. Cümə məscidinin bərpadan sonra birgə açılışı keçirildi, ardınca Qırğızıstan tərəfindən tikilən orta məktəb binasının təməli qoyuldu. Bu tədbirlərin hər biri xalqlarımızın həyatında unudulmaz mədəni hadisədir.

Xatırladaq ki, ölkəmizdə keçirilən Qırğız Mədəniyyəti Günləri aprelin 26-da başa çatacaq və qardaşlıq tariximizin parlaq səhifəsini təşkil edəcək.

***Ə.ƏLİYEV***
***XQ***